UOT 94(479.24)

ELMİN MƏMMƏDLİ
AMEA Tarix və Etnologiya İnstitutunun doktorantı
mammadlielmin@gmail.com

MEHRANİLƏR SÜLALƏSİ DÖVRÜNDƏ QAFQAZ ALBANİYASININ DİPLOMATİK ƏLAQƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/17-22

Mehranilər sülaləsinin hakimiyyəti dövrü (630-705) Sasani, Ərəb xilafəti, Bizans və Xəzər xaqanlığının hərbi-strateji və iqtisadi maraqlarının kəsişmə nöqtəsində yerləşən Albaniya dövlətinin olduqca mürəkkəb tarixi mərhələlərindən birini təşkil edir. Təqdim olunan araşdırmada Qafqaz Albaniyası tarixinin ana qaynağı M. Kalankatuklunun "Albaniya tarixi"nin, həmçinin digər mənbə materialları və tarixi ədəbiyyatların məlumatları, müqayisəli təhlili əsasında Mehranilər sülaləsi dövründə Sasani, Bizans, Xəzər xaqanlığı və Ərəb Xilafəti ilə diplomatik münasibətlər problemi araşdırılmış, Albaniya hökmdarları, xüsusilə də Cavanşirin çevik diplomatik manevrlər siyasəti ön plana çıxarılmışdır.

Açar sözlər: Albaniya, diplomatik münasibətlər, Cavanşir, manevr siyasəti.

Giriş. Cənubi Qafqazın zəngin təbii sərvətləri, əlverişli hərbi-strateji mövqeyi zaman-zaman böyük dövlətlərin diqqətini özünə çəkmiş və bölgə uğrunda uzun müddətli hərbi qarşıdurmalar qeydə alınmışdır. VII əsrin əvvəlində yenidən alovlanan Sasani-Bizans qarşıdurmasına Xəzər xaqanlığının da cəlb edilməsi, az sonra regiona ərəb yürüşlərinin başlanması ilə bölgələrin sosial-iqtisadi, hərbi-siyasi vəziyyəti daha da mürəkkəbləşmişdi. Belə bir mürəkkəb tarixi dövrdə Albaniyada hakimiyyətə gələn Mehranilər sülaləsi və onun təmsilçilərindən Albaniya dövlətçiliyinin qorunub saxlanılması üçün böyük diplomatik çaba və bacarıqlarla yanaşı, beynəlxalq aləmdə qüvvələr nisbətinin düzgün qiymətləndirilməsi və çevik reaksiya nümayiş etdirmək tələb olunurdu. Məhz bunun nəticəsidir ki, Mehrani hökmdarları uzun müddət dörd nəhəng imperatorluğun əhatəsində özünün daxili müstəqilliyini qoruyub saxlamağı bacarmışdı.

Mehranilərin mənşəyi və ilk diplomatik təmaslar. Mehranilərin mənşəyi, nəsil şəcərəsi və Albaniya ərazisində məskunlaşması haqqında ən geniş məlumatlara M.Kalankatuklunun "Albaniya tarixi" salnaməsində rast gəlinir. Müəllif açıq-aydın yazır ki, Mehranilər sülaləsi Sasani hökmdarı II Xosrovun (591-628) nəslindən idilər və onun atasının qətlində iştirak etdikləri üçün II Xosrovun qəzəbindən qorxaraq 30 min ailə ilə birlikdə Uti vilayətindən keçməklə Sasanilərin düşməni xəzərlərin ölkəsinə getmək istəyirdilər [4, s.109]. M.Kalankatuklunun təqdim etdiyi rəvayətə əsasən Mehranilərin xəzərlərlə birləşməsindən ehtiyatlanan II Xosrov Mehrə məktub göndərərək onu bu fikirdən daşındırmış və Mehr Girdman bölgəsində dayanaraq buranın idarəsini də əlinə almış, Mehrəvan şəhərini salmış, varislərindən Qoçaq Vardan Girdman qalasını tikdirmişdi. Mehranilər Girdmanın yerli knyaz nəslinin nümayəndələrini aradan götürməklə bölgədə öz ağalıqlarını bərqərar etmişdilər [4, s.110]. Təqdim olunan bu rəvayət akademik nəşrlərlə yanaşı Mehranilər sülaləsinə həsr olunan monoqrafik tədqiqatlarda da öz əksini tapmışdır [1, s.150; 5, s.186]. Alban salnaməçisi Mehranilər sülaləsinin nəsil şəcərəsində yer alan təmsilçilərin Mehran, Armayel, Vard, Vardan, Vard, Varazman, Şuşik, Varaz-Qriqor, Varaz-Peroj, Cavanşir, Yezid Xosrov və Varazmandan ibarət olduqlarını göstərmişdir [4, s.110]. Mehranilərin VI əsrin sonunda Girdmana gəldikləri dəqiq bəlli olsa da, M. Kalankatuklunun III Vaçaqan dövründə Aquen kilsə məclisinin qərarlarına imza atanların sırasında Girdmanın sahibi Cəsur Vardanın adını çəkməsi müəmmalıdır [4, s.82]. Bunun "Alban tarixi"nin köçürülməsi zamanı erməni katiblər tərəfindən aparılmış və sonrakı dövrlərə aid redaktə olması ehtimalı da nəzərə alınmalıdır.

Fikrimizcə, M. Kalankatuklunun təqdim etdiyi bu rəvayətin arxasında VI əsrin 90-cı illərində regionda yaranmış hərbi-siyasi durumla bağlı Sasanilərin həyata keçirmək istədikləri hiyləgər bit siyasət dayanırdı. Məsələ burasındadır ki, 591-ci ildə bağlanmış Sasani-Bizans müqaviləsinə əsasən

Albaniyada Sünik, Dvin və Vaspurakan Sasanilərin nəzarəti altında qalmış, Armeniyanın əksər hissəsi və Tiflisə qədər Kaxetiyanın bir hissəsi isə Bizansa verilmişdi [18, s.218; 16, s.100]. 571-591-ci illəri əhatə edən Sasani-Bizans savaşları dövründə iber, erməni və albanların separatizm nümayiş etdirmələri, dini təəssübkeşlik baxımından Bizansla yaxınlaşması Sasani sarayını müharibədən sonra bölgədə ciddi tədbirlər görməyə məcbur etmişdi. Məhz bu səbəbdən 591-ci il sülhündən sonra Sasanilər yerli alban knyazlarına etibar etmədikləri üçün Bizansın nəzarətinə keçən erməni və iber torpaqları ilə sərhəddə yerləşən Uti vilayətinin Girdman bölgəsinə öz soydaşlarını yerləşdirmək qərarına gəlmişdilər. Mehrani başda olmaqla 30 min ailədən ibarət əhalinin Girdmana köçürülməsi çox ehtimal ki, bununla bağlı olmuşdur. Maraqlıdır ki, S.T. Yeremyan və F. Məmmədova da öz araşdırmalarında Mehranilərin Girdman bölgəsində yerləşdirilməsini məhz bu amillə bağlı olduğunu göstərmişlər [5, s.187; 15, s.319].

Girdman bölgəsində yerləşən Mehranilər, görünür, Sasani sarayının dəstəyi ilə bölgənin yerli knyaz nəslinin nümayəndələrini kütləvi şəkildə aradan qaldırarkən də yerli əhalinin heç bir etirazı ilə qarşı-qarşıya qalmamışdılar. Digər tərəfdən, 603-628-ci illərdə Sasani sarayında həbsdə olan zamanı Alban katolikosunun xahişi ilə II Xosrovun Mehrani təmsilçilərinə "Girdman hakimləri və Albaniya knyazları" titulunun verilməsi məsələsi də qəribə təəssürat yaradırdı [5, s.189; 1, s.151].

Mehranilərin ilk diplomatik təmasları onların bütün Albaniyada hakimiyyəti ələ almalarından daha öncə başlamışdı. Mehranilər sülaləsindən olan Varaz-Qriqorun Bizansla diplomatik əlaqəsi VII əsrin 20-ci illərinin sonlarına təsadüf edir. Belə ki, Bizans imperatoru II İrakli (610-641) xəzərlərlə ittifaqda Tiflisin I və II mühasirəsi zamanı Albaniyaya yürüşü zamanı Varaz-Qriqorla əlaqələr yaratmışdı. 628-ci ildə II İrakli Girdmana daxil olarkən Varaz-Qriqor onun hüzuruna gələrək ilk dəfə xristianlığın diofizitlik təriqətini qəbul etmişdi [5, s.192]. Araşdırmalar göstərir ki, Varaz-Qriqor ilk dəfə katolikos Viro tərəfindən 627-ci ildə xristianlığın monofizit təriqətini qəbul etmiş, lakin 628-ci ildə Bizansın xəzərlərlə ittifaqda müharibənin gedişində dönüş yaratdıqlarını gördükdən sonra Bizansla yaxınlaşaraq diofizitliyə keçmişdi [3, s.57; 8, s.60].

Sasanilərin Mehranilər vasitəsilə Girdman bölgəsini farslaşdırmaq siyasəti gözlənilən nəticəni verməmiş və bir-iki nəsildən sonra Mehranilər yerli əhali ilə qaynayıb-qarışaraq türkləşmişdilər. V.V. Bartold, görünür, məhz bunu nəzərdə tutaraq yazırdı ki, Mehranilərin timsalında alban milli sülaləsi bərpa olunmuşdu [9, s.673].

629-cu ildə bağlanmış Sasani-Bizans müqaviləsinə görə Sasanilərin hakimiyyəti altında qalan Albaniya hökmdarı Varaz-Qriqor VII əsrin 40-cı illərinin əvvəllərinə qədər Sasaniyönümlü siyasət yeritməyə məcbur olmuşdu.

Cavanşirin hakimiyyəti dövründə Qafqaz Albaniyasının diplomatik əlaqələri. Gənc yaşlarından hərbi-siyasi arenaya qədəm qoyan Cavanşir 7 il Sasanilərin tərəfində ərəblərə qarşı xüsusi igidliklə vuruşduqdan sonra iranlılarla vidalaşaraq Atropatenadan keçməklə vətəninə qayıtmışdı [4, s.126-129; 3, s.81-82; 7, s.14-19]. Albaniyaya qayıtdıqdan sonra M. Kalankatuklunun təbirincə desək, Cavanşir çarın sərəncamı ilə Albaniyanın bütün işlərinə rəhbərlik etməyə başlamışdı [4, s.129]. Atası Varaz-Qriqordan fərqli olaraq Cavanşir hakimiyyəti ələ aldıqdan sonra, görünür, Sasanilərlə müttəfiqlik münasibətlərini pozmuşdu. M. Kalankatuklunun "Cavanşirin üsyanı haqda xəbərlər iranlılara çatanda onların qoşunları bizim ölkəyə soxuldu" yazısı da bunu təsdiq edir [4, s.129]. Alban salnaməçisi Cavanşirin ölkəyə soxulan İran qoşunları ilə mübarizəsini ətraflı təsvir edərək onun Gürcüstan tərəfə gedərək gürcü knyazı Adarnase ilə sülh sazişi bağladıqdan sonra gürcü qoşunlarının köməyi ilə Uti vilayətində Sasani qoşunlarını qılıncdan keçirdiyini qeydə almışdır [4, s.130]. Bu fakt Cavanşirin hakimiyyəti dövründə Albaniyanın ilk diplomatik addımlarından biri kimi tarixə düşmüşdür. Maraqlıdır ki, sinxron gürcü qaynaqlarında bu sülh sazişi haqqında məlumatlara rast gəlinməsə də, bəhs olunun dövrdə gürcü knyazının Adarnase olduğu öz əksini tapmışdır [12, s.223; 14, s.107].

Cavanşirin uğurları Armeniya və Gürcüstan əyanlarını onunla qohumluq yaratmağa həvəsləndirsə də, Cavanşir Sünik knyazının qızı ilə evlənərək ilk dəfə nikah diplomatiyası siyasətindən faydalanmışdı [4, s.130].

Sasani dövlətinin süqutundan sonra Cavanşir cənub təhlükəsi qarşısında yeni müttəfiq axtarışına məcbur olmuş və Bizansla yaxınlaşmağa qərar vermişdi. M. Kalankatuklunun məlumatına görə Yəzdəgirdin şahlığının iyirminci ilində (651) və Cavanşirin hakimiyyətinin 15-ci ilində Sasani dövlə-

ti çökdükdən sonra Cavanşir ərəblərə tabe olan atasından fərqli olaraq ərəblərlə müharibəni davam etmək qərarına gəldi və erməni sərkərdəsi ilə ittifaq bağlayaraq onu Bizans imperatoruna tabe olmağa razı saldı [4, s.131]. VII əsr erməni salnaməçisi Sebosun məlumatlarını araşdıran Z. Bünyadov belə bir qənaətə gəlmişdir ki, ərəblərə tabe olmuş erməni sərkərdəsi Teodoros Ruştinini cəzalandırmaq üçün Bizans imperatoru II Konstantinin (641-688) Cənubi Qafqaza qoşun göndərməsini görən Cavanşir Teodoros Ruştini ilə danışıqlar apararaq onu Bizansla yaxınlaşmağa şövq etməklə yanaşı, öz ölkəsini də qarətdən xilas etmək üçün Bizansla ittifaqa məcbur olmuşdu [3, s.85]. F. Məmmədova belə hesab edir ki, Cavanşir erməni işxanı Teodoros Ruştini ilə ittifaq bağlasa da, ondan fərqli olaraq Bizans tabeçiliyini qəbul etməyi üstün tutmuşdu [5, s.197].

Cavanşir II Konstantinə məktubla müraciət edərək "uzaq olan bu xalqı öz himayəsinə almağı" xahiş etmiş, onun bu təklifi həvəslə qəbul edilmiş, Bizans imperatoru Cavanşirə çoxlu qiymətli hədiyyələrlə yanaşı, "sinəsində gəzdirdiyi İsa Xaçının zərrəciyini" də göndərmişdi [4, s.133]. Bu hadisənin 654-cü ildə olduğunu yazan Z. Bünyadov həmin ildə Cavanşirin bir neçə dəfə II Konstantinlə görüşdüyünü qeyd etsə də, M. Kalankatukluda onların 654-cü ildə görüşü barədə məlumat verilməmişdir [3, s.85]. M. Kalankatuklunun məlumatına görə Cavanşirin II Konstantinlə görüşü Bizans imperatorunun hakimiyyətinin 19-cu ilində (659-660) onun Midiyaya səfəri zamanı baş vermişdi [4, s.135]. İmperator Cavanşirin gəlişindən xəbər tutaraq şəxsən onu qarşılamaq üçün Atropatenanın Kinkivar kəndinə gəlmiş, böyük ehtiramla onu qarşılmamışdı [4, s.135-136; 3, s.81-87; 5, s.195]. 660-cı ildə Bizans ordusunun Atropatenaya qədər gəlib çıxması ərəblərin bölgədə hakimiyyətinin müvəqqəti zəifləməsi ilə bağlı olmuşdur. Məlum olduğu kimi həmin dövrdə ərəblərin əsas diqqəti mərkəzdə hakimiyyət uğrunda qızışan qarşıdurmaya yönəlmiş, ərəb ordusu Armeniya və İberiyada da məğlub olaraq bölgəni müvəqqəti də olsa, tərk etmişdilər [16, s.107; 17, s.51].

VII əsrin 60-cı illərində Albaniya xəzərlərin qarətçi yürüşlərinə məruz qalmış və bu kontekstdə Cavanşirin Xəzər xaqanlığı ilə ilk diplomatik əlaqələri başlamışdı. 662-ci ildə xəzərləri ağır məğlubiyyətə uğradan Cavanşir onlara: "Get və Çola darvazalarından geriyə çəkil və bir daha buraya qayıtma", - göstərişini vermişdi [4, s.137-138]. Lakin 664-cü ilin qışında böyük ordu ilə yürüşə çıxan xəzərlər Araz çayı sahilinə qədər irəliləyərək Albaniya, Ararat vilayəti və Sünikdə böyük qarətlər törədib çoxlu qənimət ələ keçirmişdilər [4, s.140]. Maraqlıdır ki, M. Kalankatuklu bu yürüşün xəzərlər tərəfindən yox, hunlar tərəfindən təşkil olunduğunu göstərmişdir. Mənbənin məlumatına görə hun çarı öz qardaşlarını göndərərək Cavanşirlə görüşmək istəyini bildirmiş və bu görüş baş tutmuşdu. Bu vaxta qədər heç bir İran hökmdarının Türküstan çarı ilə üzbəüz çıxmağa cəsarət etmədiyini vurğulayan salnaməçi igid və mərd Cavanşirin onunla görüşüb razılığa gəldiyini və bu hadisənin Cavanşirin hakimiyyətinin iyirmi səkkizinci ilində (664-665) baş verdiyini göstərmişdir [4, s.140-141]. Nikah diplomatiyası yolu ilə münasibətləri nizamlayan Albaniya çarı hun hökmdarının qızı ilə evlənməklə 120.000 baş qoyun, 8000 at və öküzü qurtarmaqla yanaşı, 1200 əsiri də xilas etməyi bacarmışdı [4, s.141]. Tarixşünaslıqda Cavanşirin hunlarla və ya xəzərlərlə qohum olması ilə bağlı fərqli mülahizələr mövcuddur. Bu dövr hadisələrini, o cümlədən xəzərlərin tarixini araşdıran tədqiqatçıların əksəriyyəti belə hesab edirlər ki, Alban salnaməçisinin hunlar kimi qeyd etdiyi bu hadisənin iştirakçılarının məhz xəzərlər olmasını və Cavanşirin Xəzər xaqanının qızı ilə evləndiyini istisnasız qəbul edirlər [3, s.116-118; 5, s.181-182; 11, s.148-149; 13, s.82]. Bütün bunların əksinə olaraq S.S. Əliyarlı müəyyən arqumentlər irəli sürməklə Cavanşirin Xəzər xaqanı ilə deyil, həmin dövrdə Kür çayının sol sahilində mövcud olan solsahil hun Türküstan hökmdarı ilə görüşərək onun qızı ilə nikaha girməsi iddiasını ortaya qoymuşdur [2, s.181-182]. İlk növbədə onu qeyd edək ki, Albaniya dövlətinin öz qüdrətinin zirvəsində olduğu VII əsrin 60-cı illərində Kürün sol sahilində yeni bir dövlətin meydana çıxması inandırıcı deyildir. Digər tərəfdən 662-ci ildə Cavanşirin xəzərləri məğlub edərək Çoladan şimala qovması faktı da göstərir ki, həmin dövrdə Alban hökmdarı Kürün hər iki sahilinə nəzarəti də öz əlində saxlayırdı. S.S.Əliyarlının bu iddiasına xüsusi araşdırma həsr edən B.Ş.Şabiyev müəlifin arqumentlərinin əsassız olmasını sübut edərək, Kür çayının sol sahilində heç bir Türküstan dövləti olmadığını və Cavanşirin hunlarla yox, xəzərlərlə nikah diplomatiyası yaratdığını bir daha sübut etmişdir [6].

VII əsrin 60-ci illərində beynəlxalq səviyyədə baş verən hadisələri, regionda qüvvələr balansının dəyişməsini uzaqgörənliklə qiymətləndirməyi bacaran Cavanşir çevik manevr siyasəti yeritməklə Albaniyanın daxili müstəqilliyini qorumağa cidd-cəhd göstərirdi. Əməvilər sülaləsi dövründə Ərəb

dövlətinin güclənməsi və Bizansın zəifləməsi Cavanşiri dövlətin xarici siyasət kursunu dəyişməyə məcbur etmişdi. Dövlətin siyasi kursunu dəyişməsində bu amillərin rolunu xüsusi vurğulayan M. Kalankatuklu xəlifənin öz inanılmış adamlarını çoxsaylı hədiyyələrlə Albaniyaya göndərərək Cavanşiri öz sarayına dəvət etmişdi [4, s.142-143]. 667-ci ildə Dəməşqdə Xəlifə I Müaviyə ilə görüşərək ərəblərin ali hakimiyyətini qəbul etmişdi [4, s.144; 3, s.88].

Cavanşirin Xəlifə I Müaviyə ilə II görüşü 3 il sonra, Bizans imperatoru Konstantinin hakimiyyətinin 30-cu ilində, 670-ci ildə baş tutmuşdu. Məsələ burasındadır ki, saray xadimlərinin təhdidi ilə üz-üzə qalan II Konstantin ərəb xəlifəsindən yardım istəmiş və xəlifə Bizans heyəti ilə danışıqlar aparmaq üçün Cavanşiri Dəməşqə dəvət etmişdi [4, s.144; 3, s.89]. Xilafətlə Bizans arasında danışıqlarda Cavanşirin vasitəçi rolunda çıxış etməsi Alban hökmdarının böyük nüfuz sahibi olması, yüksək diplomatik bacarıq sahibi olmasının göstəricisi idi. Yaranmış əlverişli məqamdan bacarıqla istifadə edən Cavanşir ərəblərin Albaniya əhalisi üzərinə qoyduğu vergilərin 1/3 qədər azaldılmasına da nail olmuşdu. M. Kalankatuklu yazır ki, xəlifə Sünik vilayətinin idarəsini də Cavanşirin idarəsinə verdikdən sonra Araz çayının o biri sahilində yaşayan Atropatena əhalisini də idarə etməyi təklif etsə də, Alban hökmdarı bu təklifi qəbul etmədi [4, s.145; 3, s.89]. Bu hadisədən sonra dövrün qaynaqlarında Cavanşirin diplomatik əlaqələri haqqında, demək olar ki, heç bir məlumata rast gəlinmir. Cavanşirin öldürülməsindən sonra Qafqaz Albaniyasının dövlətçilik tarixinin ağır günləri başlamış oldu. Onun ölüm tarixi haqqında fərqli yanaşmalar vardır. Belə ki, bu hadisənin daha çox 681-ci ildə baş verməsi bir çox alim tərəfindən qəbul olunur. Lakin Ü. Hacıyeva Alban salnaməsinin K. Patkanov tərəfindən edilən tərcüməsinə istinad edərək Cavanşirin ölüm tarixinin 684-cü il olduğunu yazmışdır. Müəllif bu fikrini həmin tərcümədə patriarx Yeliazarın 684-cü ildə Gis kəndində Sisakana yollanan Cavanşirin əmri ilə dini ritual keçirməsi məlumatı ilə əsaslandırmışdır [10, s.40].

VII əsrin sonunda Qafqaz Albaniyasının xarici siyasi kursu. Cavanşirin qətlindən sonra Alban katolikosu və knyazları Albaniya taxtına onun qardaşı oğlu Varaz Trdatı layiq gördülər [4, s.160]. Güclü bir tarixi şəxsiyyətin öldürülməsi dərhal öz acı nəticələrini biruzə verdi. Alban salnaməçisinin məlumatına görə hunların sərkərdəsi və böyük knyazı Alp İlitver "həmin ildə" Cavanşirin qisasını almaq bəhanəsi ilə böyük qoşunla Qafqaz dağları ətəklərindəki vilayətləri, Qəbələ vilayətinin kəndlərini, Uti vilayətini qarət edərək Lpina vilayətinə qayıdaraq orada düşərgə saldı. Varaz Trdat xəzərlərlə münasibətləri yoluna qoymaq üçün alban katolikosunu Alp İlitverin hüzuruna göndərərək Xəzər knyazına öz həqiqi itaətini və məhəbbətini bildirməklə yanaşı, albanların Cavanşirin ölümü ilə əlaqələrinin olmadığını, bu ağır cinayətin alçaq və mənfur bir adamın törətdiyini çatdırmışdı [4, s.161; 3, s.116]. Alban katolikosu Yelizarın bu diplomatik missiyası uğurla nəticələnmiş, tərəflər arasında "sülh və sarsılmaz dostluq" əldə edilmiş və Alp İlitver ordusunu toplayaraq öz ölkəsinə qayıtmışdı. Görünür, məhz bu hadisələrdən sonra Varaz Trdatın hakimiyyəti ərəblər tərəfindən də tanınmış, xəlifə onu Şərq diyarlarının canişini, bütün Albaniyanın və Uti vilayətinin hökmdarı titulu ilə şərəfləndirmişdi [4, s.161-162].

Katolikos Yelizarın missiyası müvəqqəti sakitliyə gətirib çıxarsa da, Albaniyanı xəzərlərin növbəti basqınlarından tam xilas etməmişdi. M.Kalankatuklunun: "Hunların hər il ölkəmizə etdiyi basqınlar da bizim üçün dəhşətli fəlakətdir", - yazması da bunu göstərirdi [4, s.164; 5, s.201]. Varaz Trdat xəzərlərlə yenidən danışıqlar aparmaq üçün Böyük Kolmark vilayətinin yepiskopu İsraili Xəzər xaqanlığına səfərə göndərmişdi. Yepiskop İsrail Varçan şəhərində xaqanla görüşərək Albaniya-Xəzər münasibətlərini nizamlamış, həmçinin onun təbliğatı nəticəsində xəzərlərin bir hissəsi hətta xristianlığı da qəbul etmişdilər [3, s. 117; 4, s.165-167; 5, s.201]. Alp İlitverin albanlara göndərdiyi məktubda yepiskop İsrailin Xəzər ölkəsində qalması şərti ilə münasibətlərin daim sabit qalacağı təklifi irəli sürülmüşdü. Lakin xaqanın bu təklifi, görünür, qəbul edilməmiş və İsrail öz ölkəsinə qayıtmışdı [4, s.177-182; 3, s.118]. Görünür, məhz bundan sonra, 685-ci ildə xəzərlər yenidən basqınlara başlayaraq Armeniya, İberiya və Albaniyanı ələ keçirərək bir çox erməni, iber və alban knyazlarını qətlə yetirmişdilər [3, s.118; 5, s.202; 7, s.40-42].

685-ci ildə Cənubi Qafqaz Xilafətlə Bizans arasında yenidən qarşıdurma meydanına çevrilsə də, tərəflər arasında bağlanmış sazişə görə Albaniya, Armeniya və İberiyadan alınan vergi aralarında bərabər bölüşdürülməli idi [3, s.119; 7, s.41-42]. Armeniya və İberiyadan fərqli olaraq Albaniyanın

durumu daha ağır idi. Belə ki, Albaniya eyni vaxtda üç ölkəyə - xəzərlərə, taciklərə (ərəblərə) və romalılara (bizanslılara) vergi ödəmək məcburiyyətində qalmışdı [4, s.198].

Ölkəni bu çətin vəziyyətdən çıxarmağa çalışan Varaz Trdat dini təəssübkeşlik baxımdan yaxınlığı nəzərə alaraq 699-cu ildə iki oğlu, Qaqik və Vardanla birlikdə Konstantinopola səfər edib Bizansın qoyduğu ağır bacdan ölkəsini xilas etmək qərarına gəldi. II Yustinian onu ərəblərlə yaxınlaşmaqda ittiham edərək həbs etmiş və Varaz Trdat oğlanları ilə birlikdə 704-cü ilə qədər Konstantinopolda saxlanılmışdı. Varaz Trdatın arvadı Sparma və alban katolikosu Nerses Bakurun onları xilas etmək üçün başlatdıqları xalkedonçuluq təbliğatından məharətlə faydalanan erməni katolikosu İlyanın satqınçılığı nəticəsində ərəblər Albaniyanın daxili müstəqilliyinə xitam vermiş və beləliklə də, 1000 ildən artıq mövcud olan Albaniya dövləti süquta uğramışdı [4, s.198; 3, s.120-121; 5, s.202-203; 7, s.44-45].

Nəticə. Mehranilər sülaləsinin hakimiyyəti dövrü (630-705) Qafqaz Albaniyasının dövlətçilik tarixinin olduqca mühüm və mürəkkəb mərhələlərindən birini təşkil edir. Bu dövrdə dörd böyük imperiyanın – Sasani, Bizans, Ərəb xilafəti və Xəzər xaqanlığının hərbi-siyasi, iqtisadi maraqlarının əhatə dairəsində olan Albaniya öz daxili müstəqilliyini qoruyub saxlamaq üçün intensiv diplomatik səylər nümayiş etdirməyə məcbur olmuşdı. Mehranilərin ilk diplomatik əlaqələri hələ onların bütün Albaniyada hakimiyyətə gəlişindən öncə, 628-629-cu illərdə Varaz Qriqor tərəfindən başlanmışdı.

Cavanşirin hakimiyyəti dövründə həyata keçirilən xarici siyasət kursu daha uğurlu olmuş, onun diplomatik bacarığı və uzaqgörən siyasəti nəticəsində Bizans, Xəzər xaqanlığı və Ərəb xilafəti ilə dövlət maraqlarına uyğun xarici siyasət izlənilmiş və nəticədə Armeniya və İberiyada bölgələrindən fərqli olaraq Albaniyanın daxili müstəqilliyi qorunub saxlanmışdır.

Varaz Trdatın dövründə izlənilən xarici siyasət kursu isə uğursuz olmaqla Qafqaz Albaniyasının çoxəsrlik dövlətçilik ənənəsindən məhrum olmasına gətirib çıxarmışdır. Albaniyanın dövlətçilikdən məhrum olunmasında ənənəvi erməni xəyanətinin özünəməxsus rolu da xüsusi rol oynamışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: [7 cilddə]. – Bakı: Elm, – c. 2. – 1998. – 596 s.
2. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci ilə qədər) / red. S.S.Əliyarlı. – Bakı: "Azərbaycan" nəşriyyatı, – 1996. – 872 s.
3. Bünyadov, Z.M. Azərbaycan VII–IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Şərq-Qərb, – 2007. – 424 s.
4. Kalankatuklu, M. Albaniya tarixi: Alban salnaməsi / M.Kalankatuklu / tərc. ed., qeyd və şərhlərin müəl. akad. Z.Bünyadov; red. M.İsmayılov. – Bakı: Avrasiya press, – 2006. – 296 s.
5. Məmmədova, F. C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. / F. Məmmədova. – Bakı: Azərnəşr, –1993. – 262 s.
6. Şabiyev, B. Ş. Mehranilər sülaləsi dövründə Albaniya-Xəzər münasibətləri // Bakı: Qafqaz Albaniyasının etnomədəni irsi, – 2024. №5, – s. 203-207.
7. Vəlixanlı, N. Azərbaycan VII–XII əsrlərdə: tarix, mənbələr, şərhlər / N.Vəlixanlı. – Bakı: Elm və təhsil, – 2016. – 480 s.
8. Артаманов, М.И. История хазар / М.И.Артаманов / Под ред. Л.Н. Гумилёва. – Л.: Изд-во Гос. Эрмитажа, – 1962. – 523 с.
9. Бартольд, В.В. Сочинения: [в 9 томах] / В.В.Бартольд / От. ред. Б.Г. Гафуров. – Москва: Изд-во Восточной Литературы, – т. 2, ч. 1. – 1963. – 1024 с.
10. Гаджиева, У. Реликвии албанского христианского населения Карабаха в V–XIX вв. // Москва: Transcaucasica Южный Кавказ и сопредельные регионы: источники и историография / Под общей ред. З.В.Кананчева, – 2014. №2 – с. 36-43.
11. Гумилев, Л. Н. Тысячелетие вокруг Каспия / Сочинения Л.Н. Гумилева / Под. ред. А.И Куркчи. – Москва: Ди-Дик, – т. 11. – 1998. – 592 с.
12. Давитисдзе, С. История и повествование о Багратионах / Картлис Цховреба («История Грузии») / Под ред. акад. Р.Метревели. – Баку: East-West, – 2012. – с. 221-242.
13. Джафаров Ю. Гунны и Азербайджан / Ю.Джафаров. – Баку: Азернешр, – 1993. – 107 с.

14. Джуаншериани, Д. Жизнь Вахтанга Горгосала / Картлис Цховреба («История Грузии») / Под ред. акад. Р.Метревели. – Баку: East-West, – 2012. – с. 75-134.
15. Еремян, С. Т. Политическая история Албании III-V вв. / Очерки истории СССР / От. ред. Б.А.Рыбаков. – Москва: Изд-во АН СССР, – 1958. – 949 с.
16. Очерки истории Грузии: [в 8 томах]. / Под ред. М.Д.Лордкипанидзе, Д.Л.Мусхелишвили. – Тбилиси: Мецниереба, – т. 2. – 1988. – 579 с.
17. Тер-Тевордян А. Н. Армения и Арабский халифат / А.Н.Тер-Тевордян. – Ереван: Изд-во АН Армянской ССР, – 1977. – 321 с.
18. Тревер К.В. Очерки по истории и культуры Кавказской Албании (IV в. до н.э. – VII в н.э.) / К.В.Тревер / Москва-Ленинград: Изд. АН СССР, – 1959. – 391 с.

ЭЛЬМИН МАМЕДЛИ
Докторант Института Истории и Этнологии НАНА

ДИПЛОМАТИЧЕСКИЕ ОТНОШЕНИЯ КАВКАЗСКОЙ АЛБАНИИ В ПЕРИОД ПРАВЛЕНИЯ ДИНАСТИИ МИХРАНИДОВ

Период правления династии Михранидов (630-705 гг.) представляет собой один из сложнейших исторических этапов Албанского государства, расположенного на стыке военно-стратегических и экономических интересов Сасанидов, Арабского халифата, Византии и Хазарского каганата. В представленном исследовании на основе сравнительного анализа сведений главного источника по истории Кавказской Албании «История Албании» М. Каланкатуйского, а также данных других источников и исторической литературы, исследуется проблема дипломатических отношений с Сасанидами, Византией, Хазарским каганатом и Арабским халифатом в эпоху Михранидов. Особое внимание уделяется политике гибкого дипломатического маневрирования албанских правителей, в частности Джеваншира.

Ключевые слова: Албания, дипломатические отношения, Джеваншир, политика маневрирования.

ELMIN MAMMADLI
Doctoral student at Institute of History and Ethnology of ANAS

DIPLOMATIC RELATIONS OF CAUCASIAN ALBANIA DURING THE MIHRANID DYNASTY

The period of the Mihranid dynasty's rule (630-705) constitutes one of the most complex historical stages of the Albanian state, which was situated at the intersection of the military-strategic and economic interests of the Sassanids, the Arab Caliphate, Byzantium, and the Khazar Khaganate. In this study, based on a comparative analysis of the primary source on the history of Caucasian Albania M. Kalankatuklu's "History of Albania" as well as data from other source materials and historical literature, the issue of diplomatic relations with the Sassanids, Byzantium, the Khazar Khaganate, and the Arab Caliphate during the Mihranid era is examined. Furthermore, the policy of flexible diplomatic maneuvering employed by Albanian rulers, particularly Javanshir, is emphasized.

Keywords: Albania, diplomatic relations, Javanshir, maneuvering policy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. Qabil Əliyev.